**Dövlət Statistika Komitəsinin nümayəndəsi Əhali və sosial statistika üzrə Texniki Məsləhətçi Qrupunun 4-cü görüşündə iştirak etmişdir**



Əhali və sosial statistika üzrə mütəxəssislərdən ibarət Texniki Məsləhətçi Qrupunun (TAG) üzvü kimi Əmək statistikası şöbəsi müdirinin müavini Nemət Xuduzadə 2013-cü il noyabr ayının 25-27-də Tailandın Banqkok şəhərində keçirilən 4-cü iclasda iştirak etmişdir.

Görüşdə TAG-ın üzvü olan Avstraliya, Azərbaycan, Banqladeş, Butan, Çin, Hindistan, İndoneziya, İran, Monqolustan, Filippin, Sinqapur və dəvət edilmiş beynəlxalq təşkilatların (Beynəlxalq Əmək Təşkilatı, BMT-nin İnkişaf Proqramı, eyni zamanda, Asiya İnkişaf Bankı, Sakit okean Ölkələri Birliyinin Katibliyi və BMT-nin Asiya və Sakit Okean hövzəsi ölkələrinin İqtisadi və Sosial Komissiyası (UNESCAP)) mütəxəssisləri iştirak etmişlər.

Görüşün əsas məqsədi UNESCAP-ın müvafiq qətnaməsinə uyğun olaraq hazırlanmış sosial statistika üzrə milli potensialın gücləndirilməsini əks etdirən regional proqramın təkmilləşdirilməsi istiqamətində müzakirələrin aparılması və razılaşdırılması olmuşdur. Bununla yanaşı, "Əhali və sosial statistika üzrə TAG-ın 2014-cü il üzrə iş planı və regional strateji istiqamətlər" ilə bağlı müzakirələr edilmişdir.

Minilliyin İnkişaf Məqsədləri, BMT-nin Minimum Milli Sosial Göstəricilər Sistemi və digər məlumatlar sistemi əsasında hazırlanmış göstəricilər sisteminin layihəsi əhali, səhiyyə, ev təsərrüfatlarının gəlir və xərcləri, yoxsulluq, məşğulluq, təhsil, mənzil və infrastruktura, informasiya və rabitə, cinayətkarlıq, ailə və cəmiyyət, mədəniyyət və asudə vaxtı və dövlət idarəetmə statistikası sahələrini əhatə edir.

Dövlət Statistika Komitəsinin nümayəndəsi "Əhali və sosial statistikaya dair göstəricilərin mövcud istehsal və yayılma vəziyyəti: milli və regional səviyyədə dayanıqlı və zəif cəhətlər" mövzusu üzrə məruzə ilə çıxış etmiş və bu mövzu ilə bağlı geniş müzakirələr aparılmışdır.

Görüşün sonunda hazırlanmış "Əhali və sosial statistika üzrə milli potensialın gücləndirilməsini əks etdirən regional proqram"ın struktur layihəsinin 2014-cü ilin birinci yarımilində TAG tərəfindən təkmilləşdirilərək bütün region ölkələrin müvafiq milli statistika orqanlarına göndərilməsi və nəticələr haqqında TAG üzvlərinin məlumatlandırılması razılaşdırılmışdır.